Elmi Xəbərlər Jurnalı Nömrə 3, 2024 186-190
DOI:10.30546/gdu.3.2024

UOT:781.

# “MUSİQİ MÜƏLLİMLİYİ” İXTİSASI ÜZRƏ KADR HAZIRLIĞINDA “NOTDAN (ÜZDƏN) İFA FƏNNİNİN YERİ VƏ ƏHƏMİYYƏTİ

***Tağıyeva Günay Hafiz qızı***
***Gəncə Dövlət Universitet***
***gunay.tagiyeva.76@mail.ru***

**Xülasə:** *“Musiqi müəllimliyi” ixtisası üzrə təhsil alan tələbələrin fortepiano alətində musiqi əsərlərini hazırlaşmadan notdan (üzdən) ifa etmək vərdişlərinin inkişaf etdirilməsinin böyük əhəmiyyəti vardır. Tədqiqatın nəticələri göstərir ki, fənnin tədrisi tələbənin intellektual və yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsinə, özünəməxsusluğunun üzə çıxarılmasına, Azərbaycan xalq və bəstəkar, həmçinin dünya musiqisinin nümunələri ilə daha yaxından tanış olmasına imkan yaradır. Bu baxımdan da fənnin tədrisi müasir təlim metodları əsasında qurulmalı və tələbələrin psixologiyasını nəzərə almaqla, təhsil sisteminin modernləşməsi şərtlərinə cavab verməlidir.*

**Açar sözlər:** musiqi, fortepiano, tədris, ifaçılıq, bilik, bacarıq, vərdiş.
**Key words:** music, piano, teaching, performance, knowledge, skill, habit.
**Ключевые слова:** музыка, фортепиано, преподавания, исполнение, знание, навык, привычка.

“Musiqi müəllimliyi” ixtisası üzrə kadr hazırlığında “Notdan (üzdən) ifa” fənninin tədrisi olduqca vacibdir. Bunun üçün müəllim fənnin tədrisinə ciddi yanaşmalı, tələbənin hazırlaşmadan notdan (üzdən) ifa etmə bacarığının formalaşdırılmasını düzgün istiqamətləndirməlidir. Fənnin fərdi şəkildə tədris edilməsi dərsin daha səmərəli və məhsuldar keçirilməsinə şərait yaradır.

“Notdan (üzdən) ifa” fənni tələbənin musiqi sənəti, musiqi üslubları, janrları və formalarının müxtəlifliyi haqqında biliklərinin genişləndirilməsinə, təhlil etmək bacarığının daha da inkişaf etdirilməsinə, həmçinin sərbəst ifaçılıq bacarıqlarının təkmilləşdirilməsinə kömək edir. Bu baxımdan da müəllimin qarşısında tələbənin musiqi duyumunu, daxili eşitmə bacarığını inkişaf etdirmək və alətə marağını artırmaq kimi bir sıra tələblər durur.

Notdan ifa ilkin mərhələdə heç bir əlavə edilmədən, bəstəkar tərəfindən qeyd edilən bütün göstərişlərə əməl etməklə musiqi əsərinin tempində və xarakterində ifasını özündə ehtiva edir. İnkişaf etmiş bilik, bacarıq və vərdişlərə əsaslanan notdan ifa isə, ifaçının diqqət, sərbəstlik, yaddaş, yaradıcı təxəyyül və intuisiyasının, görmə, eşitmə və motorika ilə vəhdətini tələb edir.

Fənnin tədrisinin Blum taksonomiyası əsasında təşkili tələbələrin ifaçılıq təcrübəsini, metodiki və elmi ədəbiyyatlardan, yeni tədris vəsaitlərindən istifadə etmək qabiliyyətlərini inkişaf etdirir. Fənn tələbənin estetik baxışlarının, musiqi zövqünün formalaşdırılmasında və hərtərəfli inkişaf etdirilməsində mühüm əhəmiyyət kəsb edir.

Notdan oxuma vərdişləri üzərində işin səmərəli təşkili məqsədi ilə tələbəni notları ardıcıl oxumağa deyil, böyük səs komplekslərinin ifasına yönəltmək lazımdır. İlkin mərhələdə ağır tempdə yazılmış, sadə applikaturası olan əsərlərdən başlamaqla, tədris repertuarı sadədən mürəkkəbə doğru seçilməlidir.

Fənnin tədrisi prosesində ümumtəhsil məktəbləri üçün “Musiqi”dən məktəb dərsliklərinin repertuarı, xarici ölkə və Azərbaycan bəstəkarlarının müxtəlif forma, janr və üslublu əsərləri, vokal əsərlərin müşayiəti tələbələr tərəfindən notdan (üzdən) ifa olunur, musiqi müəllimi üçün zəruri olan notdan ifa vərdişləri formalaşdırılır.

DOI:10.30546/gdu.3.2024

Proqramın seçilməsi zamanı tələbənin fiziopsixoloji xüsusiyyətləri, fərdi bacarıq və istəkləri nəzərə alınmalı, ona individual, innovativ metod və üsullarla yanaşmaqla müəllim-tələbə münasibətləri düzgün şəkildə qurulmalıdır. Sinifdə yaradıcı atmosfer və motivasiyanın təşkil edilməsi ən vacib şərtlərdən biridir.

Tədris proqramının mənimsənilməsi nəticəsində tələbələr fənnin tələbləri üzrə bir sıra bilik, bacarıq və vərdişlərin kompleks şəkildə mənimsənilməsinə nail olurlar. Buraya sərbəst musiqi ifaçılığının, musiqi əsərlərinin not mətninin notdan (üzdən) ifasının mənimsənilməsi, müəllif mətninin daha inamlı interpretasiyasına nail olmaq üçün fortepiano alətinin mümkün imkanlarından istifadə edilməsi, müxtəlif dövr, üslub, istiqamət, forma və janrlı musiqi nümunələrindən ibarət musiqi repertuarının sərbəst və müstəqil şəkildə genişləndirilməsi, fənn proqramına uyğun olaraq müxtəlif forma, janr və üslublu əsərlər (polifonik əsərlər, sonatalar, konsertlər, pyeslər, etüdlər, Azərbaycan xalq mahnı və rəqsləri) haqqında biliklərə nail olunması daxildir. Musiqi eşitməyə nəzarət etmək bacarığının aşılanması, musiqi əsərinin notdan (üzdən) ifası prosesinin idarə edilməsi, musiqi-ifaçılıq vasitələrindən istifadədə ifadəliliyə nail olunması, ifa edilən musiqi əsərinin təhlilinin aparılması, fortepiano alətində bədii-ifaçılıq imkanlarına və professional terminoloji biliklərə yiyələnmək, ifaçılığın müxtəlif texniki növlərindən və fəndlərindən istifadə bacarığı kimi bir sıra bilik və vərdişlərin aşılanması da olduqca zəruridir. Əldə ediləcək bilik, bacarıq və vərdişlər sırasına həmçinin, musiqi əsərlərinin notdan (üzdən) ifa üzrə öyrənilməsində istifadə ediləcək metod və üsullar haqqında təsəvvürlərin, ifa çətinlikləri üzərində iş üsullarının formalaşdırılması sahəsində yaradıcı inisiativlərin inkişaf etdirilməsi, musiqi yaddaşının, melodik, lad-harmonik və tembr eşitmənin inkişaf etdirilməsi də daxildir.

“Notdan (üzdən) ifa” fənnin əsas məqsədi tələbələrin bir sıra notdan (üzdən) ifa və musiqi-nəzəri biliklərinin genişləndirilməsi, sistemləşdirilməsi və inkişaf etdirilməsidir. Not mətni ilə gözlə tanış olma, tonallıqlarda orientasiya (tonallıqlara köklənmə), daxili eşitmə, ritmik quruluşların (şəkillərin) rəngarəngliyi, not mətninin gözlə oxunması, applikaturanın müvafiqliyi, əsərlərin strukturuna tez bir zamanda nəzər yetirilməsi (hissələr, reprizlər, ibarələr, motivlər), not mətninin kiçik və böyük quruluşlarının mənimsənilməsi fənnin tədrisinin əsas məqsədlərindəndir. Həmçinin, müəllifin göstərişlərinin yerinə yetirilməsi (dinamika, ştrixlər, işarələr, xarakter, temp, metro-ritmika, harmoniya, melodik intonasiya, musiqi terminləri), əsərlərin xarakterinin göstərilməsi, əsərlərin düşünülmüş şəkildə ifası da fənnin məqsədləri sırasına daxildir. Notdan ifa zamanı tələbələrdə fakturanın sadələşdirilməsi bacarıqları da formalaşdırılmalıdır. Pedaqoji elmlər doktoru, professor Minarə Dadaşova “Musiqi müəlliminin hazırlığının metodikası” adlı dərs vəsaitində yazır: *“Mətnlə tez tanış olmaq və fakturanı sadələşdirməyi öyrənmək üçün kifayət qədər tipik əlaqələri mənimsəmədən – musiqi materialının formullarla izahı: texniki, harmonik, metro-ritmik, melodik intonasiyalı – mümkün deyil. Musiqiçinin şüurunda bu düsturlar dayanıqlı musiqi təsəvvürü formasında mövcuddur və onun daxili duyma təfəkkür texnikasının komponenti sayılır”* [1, s. 205]. Müəllif həmçinin qeyd edir ki, “*Ümumtəhsil məktəblərində musiqi müəllimləri üzündən sürətlə oxumağı fakturaya “uyğunlaşdırmağı” bacarmalıdır. Fakturaların sadələşdirilməsi əsasən çətin akkord müşayiətlərinə (ikiləşmə zamanı, geniş yerləşmə zamanı), çətin təkrar olunan fiqurasiya və qısalmalara (trellər, qruppeto), qamma mənşəli passajlara, özündə əsas məntiqi gərginliklər daşımayanlara aiddir. Bu zaman harmoniyanın əsasını – akkord və ya fiqurasiyanın funksiyasını dərk etmək lazımdır”* [1, s. 205].

*Tədris proqramının mənimsənilməsi nəticəsində tələbələr bir sıra bilik, bacarıq və vərdişlərin kompleks şəkildə mənimsənilməsinə nail olurlar:*

DOI:10.30546/gdu.3.2024

***Öyrədici:***

*-tələbələrin notdan ifa bacarıqlarının kompleks inkişafının əldə edilməsi, müxtəlif janrlı musiqi əsərlərinin qavranılması, mənimsənilməsi və sərbəst ifasının formalaşdırılması;*

*-ritmik qrafikanın mənimsənilməsi, ritmik formulların notdan ifa bacarıqlarının formalaşdırılması;*

*-horizontal not qrafikası kompleksləri üzərində notdan ifa vərdişlərinin formalaşdırılması (qammavari qrafikalar, arpeciolar, melizmlər);*

*-notdan ifa üçün vacib olan barmaqların hərəkətlilik bacarıqlarının formalaşdırılması (barmaqların klaviatura üzərində orientasiyası, applikatura texnikasının əsaslarının inkişafı);*

***İnkişafetdirici:***

*-not mətninin sürətlə qavranılması;*

*-not mətninin lad-harmonik strukturunun tez bir zamanda mənimsənilməsi bacarıqlarının inkişafı;*

*-melodik şəkillərin (yuxarı və ya aşağı istiqamətli, üfüqi, dalğavari, sıçrayışlı), xromatk ardıcıllıqların gözlə mənimsənilməsi bacarıqlarının inkişafı;*

*-harmonik sekvensiyaların, müşayiəti harmonik fiqurasiyalara əsaslanan əsərlərin tez bir zamanda gözlə mənimsənilməsi və ifası bacarıqlarının inkişafı (albert basları, triollu harmonik fiqurasiyalar);*

*-not mətninin həcmcə iri fraqmentlərinin tez bir zamanda qavranılması və eyni zamanda musiqi sintaksisinin qanunauyğunluqlarının mənimsənilməsi: motiv, frazirovka, repriz, variasiyalılıq;*

*-notdan ifa bacarıqlarının inkişaf etdirilməsi: musiqi duyumu, daxili eşitmə, ritm, musiqi yaddaşı;*

*-not mətninin təhlili, musiqi və harmonik təfəkkürün aktivləşdirilməsi, əsərin formasının təhlili bacarıqlarının inkişafı;*

*-ifa edilən əsərlərin üslub xüsusiyyətlərinin açılması bacarıqlarının inkişafı;*

*-müəllifin göstərişlərini nəzərə almaqla əsərin bütövlükdə xarakterinin göstərilməsi;*

*-not mətnini sürətlə mənimsəmə və ifa etmə təcrübəsinin artırılması;*

*-not mətninin sürətli şəkildə təhlil etməklə paralel olaraq notdan ifa etmək bacarıqlarının təkmilləşdirilməsi və inkişafı;*

*-notdan (üzdən) ifa prosesində vacib kompleks bacarıqların mənimsənilməsi;*

***Tərbiyəedici:***

*-milli və və klassik musiqiyə marağın artırılması və formalaşdırılması;*

*-musiqi əsərinə sərbəst və düşünülmüş şəkildə yanaşma bacarığının tərbiyə edilməsi;*

*-yaradıcılıq qabiliyyətlərinin, artistizm və konsert ifaçılığının (kiçik və böyük publika qarşısında) inkişaf etdirilməsi;*

*-musiqi ansambllarının tərkibində ifaçılıq qabiliyyətlərinin formalaşdırılması və inkişaf etdirilməsi;*

*-musiqi incəsənəti haqqında sərbəst çıxışlar və söhbətlər aparmaq üçün tələbələrin ümumi musiqi biliklərinin, musiqi dünyagörüşünün, ümumi dünyagörüşünün, həmçinin pedaqoji bacarıqlarının inkişaf etdirilməsi;*

*-tələbənin fərdi musiqi zövqünün formalaşdırılması* [3, s. 52-54].

Pedaqogika elmləri doktoru, professor Jalə Qədimova "Musiqi pedaqogikası: tarixilik və müasirlik" adlı dərs vəsaitində yazır: *"Müasir dövrdə tədris və tərbiyə probleminin həlli kreativ qabiliyyətlərin inkişafı və təkmilləşdirilməsi ilə ayrılmaz şəkildə bağlıdır. Buna görə də yaradıcı qabiliyyətlərin inkişafına yönəlmiş musiqi pedaqogikasının əsasını özlüyündə təhsilin yaradıcı amili təşkil edir...Çünki musiqi pedaqogikasının ilkin vəzifəsi tələbələrdə*

DOI:10.30546/gdu.3.2024

*yaradıcı başlanğıcı inkişaf etdirmək, yaradıcı sərbəstliyi formalaşdırmaq, onların şəxsiyyətinin fərdi xüsusiyyətlərini üzə çıxarmaqdır”* [2, s. 161].

Təcrübələr göstərir ki, fənnin tədrisində istifadə ediləcək interaktiv təlim metodlarının düzgün seçilməsi çox vacibdir. Şifahi izah (tələbələrlə söhbət, musiqi materialının şifahi izahı), təmrinlər, məşqlər və təkrarlama üsulları (tələbənin notdan ifa bacarıqlarının artırılması, əsərin bədii ifası üzərində işin aparılması), nümayiş üsulu (müəllim tərəfindən notdan ifa fəndlərinin, variantlarının, ifaçılıq üsullarının nümayişi), izahlı-illüstrativ (musiqi əsərinin müəllim tərəfindən izahlı ifası), təhlil (informasiyaların, musiqi əsərlərinin və ifanın təhlili), dinləmə (musiqi materiallarının audio və video yazılarının nümayişi, müqayisəsi və təhlili), reproduktiv üsul (müəllimin ifa modeli əsasında notdan ifa texnikalarının tələbə tərəfindən təkrarlanması), problemin qoyuluşu və həlli üsulu (müəllim tərəfindən notdan ifa üzrə problemin qoyulması və həll edilməsində müxtəlif fəndlərdən və variantlardan istifadə yollarının nümayişi), tədqiqat üsulu (qarşıya qoyulan notdan ifa üzrə problemin tələbə tərəfindən müxtəlif üsullarla aradan qaldırılması, yaxud sərbəst işlərə dair tələbə tərəfindən elmi araşdırmaların aparılması üsullarının nümayişi), müzakirə və debatlar (tələbənin elmi tədqiqat və yaradıcılıq bacarıqlarının inkişaf etdirilməsi məqsədilə hər hansı bir mövzu ətrafında müzakirə, mübahisə və fikir mübadiləsinin aparılması), təqdimat üsulu (tələbənin mövzular ətrafında araşdırma, ünsiyyət, fikir bölüşmə, vaxtdan səmərəli istifadə etmək, fikrini daha dəqiq və yığcam ifadə etmək bacarıqlarının inkişaf etdirilməsi məqsədi daşıyır) ən effektiv üsullardandır.

Qeyd edəki ki, təlim üsullarının seçilməsi tələbənin individual bilik və bacarıqlarından asılıdır.

Beləliklə, aparılan araşdırmaların nəticəsi göstərir ki, notdan (üzdən) ifa bacarığı musiqi müəllimi üçün mühüm əhəmiyyət kəsb edir

### *Ədəbiyyat*


1. Dadaşova M. “Musiqi müəlliminin hazırlığının metodikası”. Dərs vəsaiti. Bakı, “Zaman-3” EİKM-in mətbəəsi, 2010, 256 s.
2. Qədimova J. “Musiqi pedaqogikası: tarixilik və müasirlik”. Dərs vəsaiti. Bakı, “MBM”, 2012, 224 s.
3. Qurbanəliyeva S., Tağıyeva G. “Notdan (üzdən) ifa”. “Musiqi müəllimliyi” ixtisası bakalavriat səviyyəsi ali məktəb tərəfindən müəyyən edilən fənlərin proqramı”. I cild. Azərb. Respublikası Elm və Təhsil Nazirliyi, Gəncə Dövlət Universiteti. Gəncə, 2024, 128 s.

**Saytoqrafiya**

4. Azərbaycanın ənənəvi musiqisi. URL: http://enene.musigi-dunya.az
5. Azərbaycan Milli Kitabxanası. URL: http://anl.az.
6. “Harmony” beynəlxalq-musiqi kulturoloji jurnalı. URL: http://harmony.musigi-dunya.az
7. Musiqi dünyası. Azərbaycan Beynəlxalq Elmi Musiqi Jurnalı. URL: http://musigi-dunya.az


## МЕСТО И ЗНАЧИМОСТЬ ПРЕДМЕТА “ЧТЕНИЕ С ЛИСТА” В ПОДГОТОВКЕ КАДРОВ ПО СПЕЦИАЛЬНОСТИ “УЧИТЕЛЬ МУЗЫКИ”

***Тагиева Гюнай Хафиз кызы***

### *Резюме*

Большое значение имеет формирование у студентов, обучающихся по специальности “Преподавание музыки”, привычки исполнять музыкальные произведения по нотам без подготовки на фортепианном инструменте. Результаты исследования показывают, что преподавание предмета позволяет студенту развить свои

DOI:10.30546/gdu.3.2024

интеллектуальные и творческие способности, раскрыть свою уникальность, ближе познакомиться с образцами азербайджанского фольклора и композиторов, а также мировой музыки. В связи с этим преподавание предмета должно основываться на современных методах обучения и отвечать условиям модернизации образовательной системы с учетом психологии учащихся.

## THE PLACE AND IMPORTANCE OF THE SUBJECT "PLAY FROM NOTE TO FACE" IN THE TRAINING OF PERSONNEL FOR THE SPECIALTY "MUSIC TEACHING"

***Taghiyeva Gunay Hafiz***

***Summary***

It is of great importance to develop the habit of playing musical works from notes (by heart) without preparation on the piano instrument of students studying in the specialty of "Music Teaching". The results of the research show that the teaching of the subject enables the student to develop his intellectual and creative abilities, to reveal his uniqueness, to become more familiar with samples of Azerbaijani folk and composers, as well as world music. In this regard, the teaching of the subject should be based on modern teaching methods and should meet the conditions of modernization of the educational system, taking into account the psychology of students.

***Rəyçi: s.ü.f.d. Seyfullayeva Nüşabə Nəriman qızı***
***Musiqi fənləri kafedrasının 12 iyun 2024-cü il tarixli iclasın 20 saylı protokolu***
***Daxil olma tarixi 26 sentyabr 2024-cü il***